

■ Əli Əkbəroğlu

## GEDƏR

Çörəyi ver çörəkçiyə, gözəl deyib atalar,
Hər yetənə vermə çörək, qismətin əldən gedər.
Ya süfrəni lağa qoyar, ya da hədyan söyləyər,
Arxanca min söz danışar, ismətin əldən gedər.

Sən bəndəsən sevənməzsən Allah sevməyən kəsi,
Yeriyəni yıxma qəti, nə qaldırma hər kəsi.
Hər bir halda hədər gedər, budu sözün kəsəsi,
Tutduğun iş bica olar, zəhmətin əldən gedər.

Əkbəroğlu, hikmət öyrən nə qədər ki, zaman var,
Danış arif məclisində, çünki mətləb qanan var.
Dürlü sözlər söyləmə sən, görsən orda nadan var,
Nadan səni başa düşməz, hörmətin əldən gedər.

## DAĞLAR

Ömür keçdi bir an kimi,
Necə doldum yaşa, dağlar.
Yazdan, yaydan kam almadım,
Nə tez çatdım qışa, dağlar?

Ürək sevinclə dolmamış,
Sevgidən ilham almamış
Yarı qeydinə qalmamış,
Hicran çıxdı tuşa, dağlar.

Əli sevdi vətənini,
Söylədi qəlbi deyəni.
Olmadın könül həmdəmi,
Mən gedirəm, yaşa, dağlar.

## SADƏCƏ

İlin bahar fəsli, bir yaz səhəri,
Bu fani - dünyaya gəldim sadəcə.
Anlamadan sevinc ilə qəhəri,
Ağladım sadəcə, güldüm sadəcə.

Böyüyüb boy atdım hər ötən ildə,
Mənə xoş göründü çəmən də, gül də.
Ocaqlar qaladım neçə könüldə,
Alışdım sadəcə, söndüm sadəcə.

Aqillərdən söz götürdüm, söz aldım,
Yaradandan bəsirətli göz aldım.
Çox gözəldən atəş aldım, köz aldım,
Təkcə bir gözəli sevdim sadəcə.

Neçə ömrə həsr eylədim bir ömrü,
Altun ömrü, gövhər ömrü, dür ömrü
Havayı dolandım, itirdim ömrü,
Sonradan qədrini bildim sadəcə.

Öyrəndim, öyrətdim, heç usanmadım,
Gah özümü, gah özgəni danladım.
Bugünkü xətamı sabah anladım,
Sonradan səhvimi bildim sadəcə.

Əli, nə pul yığdın, nə var topladın,
Dolandın, kimsəyə möhtac olmadın.
Nə kam aldın, nə də nakam qalmadın,
Yaşadın sadəcə, öldün sadəcə.

## DAĞLAR

Qəmli könlüm səni yaman istədi,
Qar-qırov üstünü alanda, dağlar.
Sərin bulaqların suyun istədi,
Alışıb ürəyim yananda, dağlar.

Necədə üşüdü, titrədi ürək,
Saralıb solubdu səndə ki, bəzək.
Bütün arzularım sizi şən görmək
Daşaraq sellərin axanda, dağlar.

Şən keçər növrağın, pozulmaz halın,
Mələşə üstündə dövlətin, malın.
Qış vaxtı nə sorum, nə xəbər alım,
Doluxur gözlərim baxanda, dağlar.

Əkbəroğlu soraq gözlər bahardan,
Min xalı sərilə üstünə Haqdan.
Bənövşən, nərgizin gör bir nə vaxtdan,
Gözləyir yolunu talanda, dağlar.

## VERİBDİ

Gör nə səxalıdı ana təbiət,
Bütün gözəlliyi bizə veribdi.
Əzəmət, vüqarı uca dağlara,
Bəhrəli bağları düzə veribdi.

İnsan taleyini ömürə, yaşa,
Duyğunu, sevgini ürəyə qoşa,
Ağılı, kamalı, idrakı başa,
Görüb bəyənməyi gözə veribdi.

Səbri, dəyanəti cəm edib sərdə,
Səxanı comərdə, hünəri mərdə,
Əli Əkbəroğlu hər vaxt, hər yerdə,
Ən böyük qiyməti sözə veribdi.

## NƏ VAR Kİ...

Gözəl sözdü, gözəl deyib atalar,
“Utanmasan, oynamağa nə var ki”.
Ağıl gərək körpü sala, keçələr,
Dəli olub çay yarmağa nə var ki.

İnsan odu arif ola, söz qana,
Dil verməyə hərcayıya, nadana.
Hər kəs gərək öz səhvindən utana,
Başqasını danlamağa nə var ki?

Aqil ola, bələd ola hər sirə,
O yaraya eldə şərə, xeyirə.
Hünər odu loğman ola, can verə,
Cəllad olub can almağa nə var ki.

Eşqə könül verə, gül-çiçək əkə,
Qoruya, adına düşməyə ləkə.
Kişi odu eldə el dərdi çəkə,
Öz dərdini ağlamağa nə var ki?”

Əkbəroğlu, ö”ur çatır başa ha,
Qalan ömrü sən xərcləmə boşa ha.
Elə yaşa eldə gəlsin xoşa ha,
Necə gəldi yaşamağa nə var ki.